AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əlyazması hüququnda

**HAMLET VƏLİ OĞLU İLYASOV**

# AİLƏDƏ KİÇİK MƏKTƏB YAŞLI UŞAQLARLA VƏTƏNDAŞLIQ TƏRBİYƏSİ ÜZRƏ APARILAN İŞİN İMKANLARI VƏ YOLLARI

5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI – **2016**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
***pedaqogika üzrə elmlər doktoru, professor,***
***Əməkdar müəllim***

**Rəsmi opponentlər:** **Fərahim Balakişi oğlu Sadıqov**
***pedaqogika üzrə elmlər doktoru, professor***

**İramin Namaz oğlu İsayev**
***pedaqogika üzrə fəlsəfə doktoru, professor,***

**Aparıcı təşkilat:** **Azərbaycan Dillər Universitetini Pedaqogika kafedrası**

Müdafiə « 08 » noyabr 2016-cı ildə saat _14 $^{00}$__ - da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat « _06_ » oktyabr 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva**

*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

`

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Ailə cəmiyyətin ilkin özəyi olaraq cəmiyyətə yararlı insanların yetişməsində mühüm əhəmiyyət daşıyır. O, hələ kiçik yaşlardan uşaqlarda şüurun, iradənin, hisslərin formalaşmasına şərait yaradır. Alimlərin fikrincə və mövcud təcrübənin sübut etdiyinə görə uşaqlar valideynlərin rəhbərliyi altında ilk həyat təcrübələrini qazanır, onları əhatə edən gerçəkliklə əlaqədar ilkin elementar biliklərə yiyələnir, cəmiyyətdə həyati bacarıq və vərdişlər qazanırlar. Uşaqlıq təəssüratları bütün ömrü boyu insanın xatirindən silinmir. Uşaqlıq sevincləri, həyəcanları, çətinlikləri, macəraları unudulsa belə, sonralar onların bütün gələcək fəaliyyətində özünü göstərir. Uşaqlıqdan ailədə zəhmətsevərliyə, məsuliyyətliliyə, işgüzarlığa alışdırılmış insan böyüdükdən sonrakı fəaliyyətində bu keyfiyyətlərindən bəhrələnir. Hətta ətrafındakı insanlara, cəmiyyətə, ictimai quruluşa, iqtisadi münasibətlərə, davranışlara baxışları, dini-mənəvi dəyərlərə, qanunçuluq əxlaqına, vətəndaşlıq amalına yiyələnməsinin əsası uşaqlıqda, ailədə qoyulur. Kiçik yaşlı uşaq sabahkı fəal vətəndaş ola bilir, ölkənin iqtisadi-sosial inkişafında, demokratik cəmiyyət quruculuğunda, mədəniyyətin inkişafında xidmətlər göstərir. Bütün bunların özülü hələ kiçik yaşda ailədə qoyulur. Ailə mühitində böyüyən uşaq sağlam ailə şəraitində, ahəngdar inkişaf yolu keçir. Ailədə uşaq əxlaq normalarını mənimsəyir, müştərək əmək vərdişlərinə yiyələnir, onun həyat planları və idealları ailədə formalaşır. Onu da qeyd etmək lazımdır ki, qazanılan bu vərdişlər o qədər möhkəm olur ki, insan böyüdükdən sonra da onu özündə daşıyır. Buna görə də ailə öz ahəngi, əxlaqi-mənəvi mühiti, vətənsevərliyi, zəhmətkeşliyi, yüksək vətəndaşlıq duyğuları nümayiş etdirməsi ilə kiçik yaşlı uşaqların ömrü boyu unudulmayan sağlam vərdişlərə yiyələnməsinə önəm verməlidir.

Mütəxəssislərin qeyd etdiklərinə görə və bizim də təcrübi müşahidələrdən bildiyimiz kimi, hətta, heç nəyi bacarmayan, zəif 2 yaşlı uşaq anasını izləyərək, ev işlərində nəyisə yerinə yetirməyə cəhd edir. Bəllidir ki, uşaqlar valideynlərinin bütün hərəkətlərini, gördüyü işləri, sözlərini diqqətlə izləyirlər. Əks ifadə etmək bacarıqları olmasa da, müşahidə etdikləri onların yaddaşında iz salır.

Bəlli olduğu kimi, uşağı ailənin gündəlik həyat-məişət şəraiti, valideynlərlə qarşılıqlı münasibəti, ailədə cərəyan edən təsir vasitələri tərbiyə edir. Deməli, kiçik yaşlı uşaqların ailədə tərbiyəsinin əsas şərtlərindən biri onların daimi, fasiləsiz tərbiyəvi təsirdə olmalarıdır. Digər keyfiyyətlər kimi vətəndaşlıq duyğusunun ailədə daimi mövcudluğu böyüyən insanın təkcə anlamla deyil, kiçiklikdən təqlid və bənzərliklə bu keyfiyyətləri özündə formalaşdırmasına imkan verir.

A.S.Makarenko haqlı olaraq yazırdı ki, düzgün ailə tərbiyəsinin şərti – səmərəli təşkil olunmuş məişət, uşağın ailədə həyat rejimidir.

Uşağın ailədə məqsədyönlü tərbiyəsində valideynlərin nüfuzunun da bir şərt kimi mühüm əhəmiyyəti vardır. Valideyn nüfuzunun ən əsas cəhəti onun vətəndaş siması, səmərəli işlər görməsi, ailə məişətinin normal qurulması və təminatı, eləcə də, valideynin işlədiyi kollektivdə, ictimaiyyət arasında hörmətə layiq olmasıdır. Valideynlərin həyat tərzi onların uşaqlar yanında nüfuz qazanmalarını müəyyənləşdirir. Uşağın şəxsiyyətinə hörmət, onun maraqlarının nəzərə alınması, münasibətlərdə qayğılı və tələbkar mövqe tutmaq valideyn nüfuzunu təmin etdiyi kimi, uşaqların da azad, sərbəst, özünəinamlı olmasına, normalara riayət etmək vərdişləri qazanmasına kömək edir. Təcrübə göstərir ki, valideynlərin pedaqoji biliklərə yiyələnməsi, pedaqoji takt və yanaşmadan istifadə etməsi, sağlam əxlaqi-mənəvi dəyərlər daşıyıcısı olması, səbrliliyi, təmkinliyi, möhkəm iradi keyfiyyətləri ilə seçilməsi, tərbiyədə məqsədyönlülüyü nəzərə alması uşaqların ahəngdar inkişafının reallaşmasına şərait yaradır.

Tədqiqatlardan bəllidir ki, müxtəlif ailə tipləri olduğu kimi, uşaqlar da psixoloji, fiziki, iradi, intellektual keyfiyyətlərinə görə bir-birindən fərqlənir. Biz bu tədqiqatda müxtəlif tipləri və xüsusiyyətləri öyrənməyi qarşımıza məqsəd qoymamışıq. Normal ailələrdə sağlam uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin məzmunu, mahiyyəti, imkan və yollarını araşdırmağı, elmi-nəzəri ümumiləşdirmələr apararaq, müəyyən nəticə hasil etməyi nəzərdə tutmuşuq. Buna görə də tədqiqatda əsas diqqət normal ailə şəraitində sağlam uşaqların vətəndaşlıq tərbiyəsi məsələlərinin öyrənilməsinə yetirilmişdir.

Digər ictimai təsisatlar, institutlar kimi, ailə də zamanın, dövrün, elmi-texniki tərəqqinin, iqtisadi münasibətlərin, ictimai quruluşun, təkmilləşən əxlaqi-mənəvi dəyərlərin təsirlərinə məruz qalır, ailə qarşısında yeni dövrün yeniləşən tələblərinə uyğun tərbiyə işi aparmaq vəzifəsi meydana çıxır.

Artıq neçə illərdir ki, ölkəmizdə demokratik cəmiyyət – vətəndaş cəmiyyəti qurulmaqdadır. Yeniləşən müasir cəmiyyətdə vətəndaşlıq tərbiyəsi xüsusi aktuallıq kəsb edir.

Ulu öndər Heydər Əliyevin tərbiyə konsepsiyasında, təsadüfi deyildir ki, vətəndaşlıq tərbiyəsi məsələləri ayrıca yer tutur.

«Ulu öndər Heydər Əliyevin böyüyən nəslin vətəndaş təhsili və tərbiyəsinə aid baxışları əxlaqi-mənəvi keyfiyyətlərin bərqərar olması üçün yalnız hikmət və tövsiyələrlə, göstərişlərlə deyil, problemə ciddi elmi yanaşması ilə səciyyələnir.

Heydər Əliyev insanın şəxsi-fərdi və ictimai maraqlarının vəhdətini qəbul edərək, onun kamillik ölçüsünü yüksək intellektə və mənəviyyata malik insan-vətəndaş olması ilə dəyərləndirmişdir».

Prof. Ə.Ağayev qeyd edir ki, Heydər Əliyevin vətəndaşlıq dərslərinin məzmununda xalqımızın zəngin tarixinin, dilinin, ədəbiyyatının, mədəniyyətinin, mənəviyyatının, milli dəyərlərinin öyrənilməsi geniş yer tutur. Bütün bunları mükəmməl bilən və fəaliyyətində təzahür etdirən insan həqiqi mənada vətəndaş məziyyətlərini nümayiş etdirə bilər… Heydər Əliyevin vətəndaş tərbiyəsi ideyasının əsasında milli vətənpərvərlik ideyası, vətəndaşlıq borcu dayanır. Alim bu qənaətdədir ki, Ulu öndər Heydər Əliyevin vətəndaş tərbiyəsi sahəsində ideya və fikirləri yalnız elmi-nəzəri, metodoloji əsas olması ilə deyil, praktik əhəmiyyətliliyi ilə də diqqəti cəlb edir

Böyüyən nəslin təlim-tərbiyəsi işinin məqsədyönlü təşkilində onların vətəndaş hazırlığı mühüm yer tutur. Təbii ki, vətəndaş yetişdirilməsi, ilk növbədə, ailədən qaynaqlanan bir prosesdir. Bu iş kiçik yaşlı uşaqların tərbiyəsində ailə ilə yanaşı, məktəb tərəfindən həyata keçirilir. Qeyd etməliyik ki, böyüyən nəslin vətəndaş hazırlığı bütün zamanlarda aktual hesab edilmişdir. Hazırkı dövrdə – müstəqil, suveren Azərbaycan dövlətinin təşəkkülü zamanında bizim üçün daha böyük aktuallıq kəsb edir. Çünki müstəqil Azərbaycan dövləti yeni, azad, demokratik düşüncəli, öz yurduna, dilinə, adət və ənənələrinə sadiq, işgüzar, öz sərvətlərinin sahibi ola bilən, Vətənini göz bəbəyi kimi qoruyan, ölkəsinin inkişafında yüksək peşə-sənətkarlıq qabiliyyəti ilə seçilən, yüksək sivilizasiya mövqeyində dayanıb, öz dəsti-xəttini tanıda bilən vətəndaşlar yetişdirmək missiyasına malikdir. Bu missiya ailədə bütün tərbiyə prosesində, məktəbdə tədris prosesində və dərsdənkənar tədbirlər vasitəsilə həyata keçirilir.

Cəmiyyətimizdəki dəyişikliklər həm sosial-iqtisadi, həm də siyasi cəhətdən, o cümlədən vətəndaşlıq anlamının məzmunca və keyfiyyətcə yeniləşməsinə rəvac vermişdir. SSRİ-nin dağılmasından sonra «sovet vətəndaşı», «SSRİ vətəndaşı» arxaik anlayışlara çevrilmişdir. Əvəzində öz müstəqil dövlətinin verdiyi hüquq və vəzifələri yerinə yetirən vətəndaş anlayışı yaranmışdır. Respublikamızın vətəndaşı yalnız şəxsin dövlətə mənsubluğunu bildirən sənədlə və hüquqi aktlarla deyil, eyni zamanda, kamil şəxsiyyət – insan - vətəndaş yetişdirilməsi zəminində tərbiyə vasitəsilə hazırlanmalıdır.

Vətəndaşlıq – birlikdə yaşadığın xalqlarla, mənsub olduğun millət və dövlətlə birliyi, əlaqəliliyi hiss etmək, onların təhlükəsizliyi və çiçəklənməsi üçün məsuliyyət daşıdığını dərk etmək, Vətənin inkişafı naminə konstitusion hüquq və vəzifələrlə tərəqqiyə xidmət etmək deməkdir.

Vətəndaş tərbiyə etmək üçün uşaqlarla kiçik yaşlarından başlayaraq, ailədə sistemli iş aparılmalı, onun imkan və yolları müəyyənləşdirilməlidir. Bu problemlə əlaqədar Ə.Ağayevin, R.Hüseynovun, A.Əliyevin, M.İlyasovun, N.Yusifovanın, S.Səfərovanın tədqiqat işləri olmuş, onlar vətəndaşlıq ləyaqəti, vətəndaşlıq borcu keyfiyyətlərini yeniyetməlik yaşı dövründə, texniki-peşə məktəbi şagirdləri arasında öyrənmiş, tədqiqat nəticələrini ümumiləşdirmiş, vətəndaş təhsili və tərbiyəsinin aktuallığını əsaslandırmış, tədqiqat mövzularına uyğun olaraq vətəndaş tərbiyəsinin yuxarı yaş mərhələlərində iş sistemini işləmişlər. Rusiya tədqiqatçılarından L.YU Mastıkina. M.B. Popov, N.S. Nikolayev, J.B. Predveçnaya, L.A. Xolopova, Yaşina N.YU və digərləri kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsini müxtəlif aspektdə tədqiq etmişlər. Lakin onların heç birisi ailədə uşaqların vətəndaşlıq tərbiyəsi probleminə toxunmamışlar.

Dinamik inkişaf tələb edir ki, vətəndaş tərbiyəsinin məzmunu və xüsusiyyətləri, imkanı və yolları başlanğıcdan öyrənilsin, sonrakı işlər bu bazada həyata keçirilsin. Lakin indiyə qədər ailədə kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi işinin imkanları və yolları araşdırılmamışdır. Biz, tədqiqat işində 6-9 yaşlı uşaqların vətəndaş hazırlığı məsələlərini əhatə edirik. Yeniləşən cəmiyyət, yeni iqtisadi münasibətlər də vətəndaş tərbiyəsi işinə yeni prizmadan baxılmasını tələb edir. Məhz yeniləşən cəmiyyətdə az işlənmiş bu problemin aktuallığını nəzərə alaraq, «Ailədə kiçik yaşlı uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin imkanları və yolları» mövzusunda dissertasiya yazmağı qarşımıza məqsəd qoyduq.

**Tədqiqatın obyekti** ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi prosesidir.

**Tədqiqatın predmeti** ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi işinin imkanları və yollarıdır.

**Tədqiqatın məqsədi** ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi işinin imkanlarını və onlardan səmərəli istifadə yollarını müəyyənləşdirməkdir.

**Tədqiqatın fərziyyəsi.** Kiçik məktəb yaşlı şagirdlərin vətəndaşlıq tərbiyəsi işinin imkanları və yolları o zaman səmərəli olar ki:

- ailə ahəngi normal olsun, ailədə uşaqların vətəndaşlıq tərbiyəsi valideynlərin əsas məqsədinə çevrilsin;
- valideynlər pedaqoji biliklərə yiyələnmiş olsunlar, ailədə hərəkət, davranış və digər şəxsi nümunələri ilə pedaqoji-etik tələb normalarına riayət edilsin;
- ailədə valideynlər həmişə vətəndaş mövqeyi nümayiş etdirsinlər və uşaqların belə bir mövqeyə yiyələnmələri dəyərləndirilsin;
- ailədə ənənəvi milli bayramları, dövlət bayramlar, tarixi günlər vətəndaş mövqeyindən qeyd edilsin;
- ailədə uşaqların dövlət bayrağına, himninə, gerbinə müxtəlif oyunlar, tədbirlər vasitəsi ilə məhəbbət hissi aşılansın;
- ailədə Vətən, dövlət adı, Ana dili həmişə uca tutulsun, müxtəlif tədbirlərlə uşaqlarda vətənpərvərlik və milli iftixar hissi formalaşdırılsın.

**Tədqiqatın vəzifələri:**

- vətəndaşlıq anlayışının pedaqoji mahiyyətini səciyyələndirmək və vətəndaşlıq tərbiyəsinin tarixi inkişaf baxımından nəzəri əsaslarını şərh etmək;
- kiçik məktəb yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin mövcud vəziyyətini araşdırmaq və təhlil etmək;
- yüksək intellektə malik, sivilizasiyalı cəmiyyətdə yaşaya bilən, rəqabətədavamlı şəxsiyyət kimi formalaşdırılan kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq hazırlığının imkanlarının və yollarının səmərəliliyini müəyyənləşdirmək;
- bu sahədə aparılacaq işlərin təkmilləşdirilməsi üçün təkliflər vermək.

**Tədqiqatın metodoloji əsasını** fakt və hadisələrə dialektik yanaşma - vətəndaş tərbiyəsi haqqında elmi-nəzəri fikirlər, Azərbaycan Respublikasının hüquqi aktları və sənədləri, böyüyən nəslin təhsili və tərbiyəsi haqqında direktiv sənədlər təşkil edir.

**Tədqiqatın metodları:**

- Nəzəri təhlil. Problemlə əlaqədar hüquqi, fəlsəfi, pedaqoji və psixoloji ədəbiyyat nəzərdən keçirilmiş, tədqiqat işləri araşdırılaraq, müqayisəli təhlillər aparılmışdır;
- Müşahidə. Gəncə, Qazax, Bakı və Sumqayıt şəhərlərində 120 ailədə məqsədəmüvafiq müşahidələr aparılmışdır;
- Müsahibə və anket sorğusu. Ailədə kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi işinin imkanları və yollarını öyrənmək, onun səmərəliliyini üzə çıxarmaq üçün valideynlərlə, uşaqlarla müsahibələr və anket sorğusu aparılmışdır. Alınan cavablar təhlil edilərək ümumiləşdirilmiş və tədqiqi nəticələrin alınmasında onlardan istifadə edilmişdir;
- Eksperiment. Tədqiqat prosesində əsas götürdüyümüz fərziyyə və müdafiəyə çıxarılan müddəaların doğruluğunu müəyyənləşdirmək məqsədilə cəlb etdiyimiz ailələrdə vətəndaşlıq tərbiyəsi işinin səmərəliliyini təmin edən əsas şərtləri üzə çıxarmışıq.

**Tədqiqatın mərhələləri.** Tədqiqat 3 mərhələdə aparılmışdır. Birinci mərhələdə tədqiqatın nəzəri və metodik, tarixi və müasir qoyuluşu müvafiq ədəbiyyat və tədqiqatları araşdırmaqla üzə çıxarılmışdır (2010-2011-ci illər).

İkinci mərhələdə şəhər və kəndlərdə (Gəncə, Qazax, Bakı, Sumqayıt) ailələrdə kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi işinin vəziyyəti öyrənilmiş, mövcud tərbiyəvi imkan və yollar üzə çıxarılmışdır. Bundan sonra ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinin aşılanması üçün müəyyənləşdirdiyimiz imkan və yolların sistemi 120 ailədə istifadə edilmək üçün paylanmış və tətbiqi izlənilmişdir. Müəyyənləşdirici, öyrədici, yoxlayıcı eksperimentdən istifadə edilmişdir (2011-2012-ci illər).

Üçüncü mərhələdə vətəndaşlıq tərbiyəsinin təklif edilmiş imkan və yollarının səmərəlililik nəticələri təhlil edilmiş, eksperimentdən alınmış ümumi nəticələr obyektiv qiymətləndirilmiş və dissertasiya tamamlanmışdır (2012-ci il).

**Tədqiqatın mənbələri** rəsmi dövlət sənədləri və arxiv materialları, statistik faktlar, elmi-tədqiqat işləri, dövri mətbuatın materialları və klassik pedaqoqların ideyaları, ailədə vətəndaş tərbiyəsi təcrübəsi olmuşdur.

**Tədqiqatın elmi yeniliyi** yeniləşən cəmiyyətdə və informasiya bolluğu şəraitində yetişdiriləcək böyüyən nəslin vətəndaşlıq tərbiyəsinin pedaqoji mahiyyətini və şəxsiyyətin formalaşması prosesində ailədə vətəndaşlıq tərbiyəsi işinin əhəmiyyətini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinin ideya-nəzəri və pedaqoji əsaslarının hazırlanmasından ibarətdir.

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, dissertasiyada təqdim ediləcək iş sistemi, müəyyənləşdirilmiş imkanlar və yollar ailədə istifadə edilərsə, kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinin səmərəli nəticələrini üzə çıxara bilər. Pedaqoji institut və universitetlərdə, pedaqoji təhsil mərkəzlərində mühazirə və seminarlarda, ümumtəhsil məktəblərində ailələrlə iş zamanı, valideynlərin ailədə tərbiyə işi prosesində tədqiqatın elmi-nəzəri müddəalarından və nəticələrindən istifadə etmək fayda verə bilər.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi şəxsiyyət formalaşdırılmasının mühüm tərkib hissəsidir və yeniləşən cəmiyyətdə yeni insanın hazırlanmasında xüsusi əhəmiyyət kəsb edir;
- ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi onların həyat hazırlığında xüsusi mərhələ təşkil edir;
- vətəndaşlıq tərbiyəsi prosesində milli-regional xüsusiyyətlərin, adət və ənənələrin, həyat şəraitinin, sosial-iqtisadi reallıqların nəzərə alınması və bu əsasda iş sisteminin tətbiq edilməsi vətəndaşlıq tərbiyəsinin müasir məzmununu meydana çıxarır və səmərəliliyini təmin edir;
- valideynlərin və kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq hazırlığına kömək edən müvafiq biliklərlə, informasiya və məlumatlarla silahlandırılması vətəndaşlıq tərbiyəsi işinin keyfiyyətinə və səmərəliliyinə əhəmiyyətli təsir göstərir.

**Tədqiqatın inandırıcılığı və etibarlılığı** alınmış nəticələrin təcrübədə özünü doğrultması ilə sübut olunur.

**Problemin işlənilmə səviyyəsi.** Vətəndaşlıq tərbiyəsi probleminə dair müxtəlif elmi yanaşma ilə xeyli tədqiqat əsəri yazılmışdır. Bunlar ümumiyyətlə problemin fəlsəfi, ümumpedaqoji mahiyyətini, əxlaqi-mənəvi dəyər keyfiyyətini əhatə etmişdir. Son illərdə cəmiyyətini inkişafı, ictimai-siyasi və sosial-iqtisadi yeniləşmə, elmi-texniki inkişaf, texnologiyalarının fəaliyyətdə geniş tətbiqi problemin insanların kiçik yaşlarından başlayaraq, tədqiqini tələb edir. Bu baxımdan yuxarıda adlarını çəkdiyimiz bir neçə tədqiqatdan başqa, uşaqların vətəndaşlıq tərbiyəsi problemi üzrə əsərə rast

gəlmirik. Azərbaycanda aparılmış tədqiqatlar əsasən, yuxarı sinif şagirdlərində vətəndaşlıq borcu, vətəndaşlıq ləyaqəti məsələlərini əks etdirmişdir. Ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinə aid yeniləşən cəmiyyətin tələbinə uyğun olaraq ilk tədqiqata biz başlamışıq.

**Dissertasiyanın aprobasiyası** müxtəlif formalarda həyata keçirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri Respublika və Beynəlxalq elmi-praktik konfranslarda, Respublikada keçirilən doktorantların və gənc tədqiqatçıların elmi-praktik konfranslarında məruzə edilmişdir. Dissertasiyanın əsas müddəaları müəllifin xaricdə və ölkə daxilində nəşr olunan elmi jurnallardakı məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, 2 fəsildən, 7 yarımfəsildən, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun əsas aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi və vəzifələri, işçi fərziyyəsi, metodolojin əsasları, nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqat prosesində istifadə olunmuş metodlar şərh olunmuşdur.

Dissertasiyanın I fəsli "**Vətəndaşlıq tərbiyəsi pedaqoji problem kimi**" adlanır. Həmin fəslin "***Elmi-pedaqoji ədəbiyyatda vətəndaşlıq probleminin qoyuluşu***" adlı I yarımfəslində vətəndaşlıq tərbiyəsi probleminə aid yazılmış əsərlər təhlil olunur, onların pedaqoji mahiyyəti üzə çıxarılır. Dissertasiyada qeyd edilir ki, vətəndaşlıq tərbiyəsi problemi elmi-pedaqoji ədəbiyyatda XX əsrin 70-ci illərindən öz həllini tapmağa başlamışdır. Bu problem bir neçə istiqamətdə - hüquqi, siyasi, fəlsəfi, sosioloji, psixoloji, pedaqoji istiqamətlərdə tədqiqat obyektinə çevrilmişdir.

Fəlsəfi və pedaqoji istiqamətdə tədqiqat aparan müəlliflər vətəndaş anlayışının daha çox mənəvi tərəfinə üstünlük vermişlər. Buna görə də qeyd etmişlər ki, vətəndaşlıq şəxsiyyətin mənəviyyat göstəricisi, vətən və dövlət qarşısında borclarını yerinə yetirməsi və cəmiyyətdə ona tapşırılan vəzifənin, ictimai və təbii tələblərin ödənilməsi kimi başa düşülməlidir.

Vətəndaşlıq anlayışının hüquqi, fəlsəfi, pedaqoji çalarları əslində bir-birini inkar etmir, əksinə, bir-birini daha da dolğunlaşdırır. Vətəndaş

sayılan hər kəs vəzifə və hüquqlarından istifadə edərək, vətəndaşlıq borcunu yerinə yetirməlidir.

İnsanın vətəndaş funksiyası və vətəndaşlıq borcu, bu borcun tərbiyə edilməsi haqda hələ antik dövrdən bizə qədər gəlib çatan ümumfəlsəfi fikirlər, ideyalar vardır. Mənbələrdə qeyd edilir ki, vətəndaşlıq tərbiyəsi ideyası ilk dəfə qədim yunan filosofu Platonun (b.e.ə. 427-347) əsərlərində öz əksini tapmışdır.

Sofokl (b.e.ə. 496-406) "Antiqona" əsərində insanın dövlətin qanunlarına tabe olmasının onun cəmiyyətdə mövqeyinin yüksəlməsinə təsir etdiyini göstərir. Evripid (b.e.ə. 480-406) "Finikiyalılar" əsərində vətəni insan üçün ən qiymətli dəyər hesab edir. Aristotel (b.e.ə. 384-322) isə göstərirdi ki, vətəndaşlıq ləyaqəti dövlətlə, dövlətin quruluşu ilə şərtlənir.

Dissertasiyada Avropada vətəndaşlıq tərbiyəsi ilə əlaqədar ideyalar irəli sürülür və onların pedaqoji mahiyyəti şərh edilir. Xüsusilə, Şərqdəki mənəvi dəyərlərin vətəndaş keyfiyyəti kimi götürülməsini Avropada nəzərə alan E.Rotterdamski, T.Qobbs, T.Mor, T.Komponelli kimi intibaha təkan verənlər vətəndaşlıq ideyasını məzmunca zənginləşdirmişlər.

Tədqiqatlardan aydın olur ki, Avropa intibahı dövründə ondan çox-çox əvvəl olmuş Şərq intibahının nailiyyətləri geniş öyrənilməyə və tətbiq olunmağa başlanılmışdır. Xusüsilə, humanizm ideyası Almaniyaya, Fransaya, Hollandiyaya və İngiltərəyə keçərək, ümumdünya tarixi əhəmiyyəti kəsb etmişdir.

Dissertasiyada Bekon Verulemskinin, Con Lokkun, V.Ratixinin, Y.A.Komenskinin, K.D.Uşinskinin, A.A.Bakıxanovun, M.F.Axundovun, M.T.Sidqinin, S.Ə.Şirvaninin, A.Səhhətin, H.B.Zərdabinin, M.H.Rüşdiyyənin humanizm-vətənpərvərlik ideyaları əsasında onların vətəndaşlıq və vətəndaşlıq tərbiyəsinə aid mövqeləri üzə çıxarılır.

Dissetasiyada məşhur alman filosofu və pedaqoqu Georq Kerşenşteynerin 1901-ci ildə Münxendə çap olunmuş "Gəncliyin vətəndaşlıq tərbiyəsi" adlı əsəri geniş təhlil olunur.

Bu insanlar vətəndaşlıq tərbiyəsinin həyata keçirilməsi üçün təhsili əsas götürmüş, müvafiq məktəb və müəllimin olmasını vacib saymışlar. Eyni zamanda bu işdə dövlətin marağının olmasını da gərəkli bilmişlər.

Dissertasiyada müxtəlif ictimai quruluşda vətəndaşlıq və vətəndaşlıq tərbiyəsi probleminə baxışlar mövcud ədəbiyyatlar üzrə təhlil olunur, sovet dövründə sovet vətəndaşı anlayışının əsas götürüldüyü qeyd edilir. Məhz həmin dövrdə vətəndaşlıq tərbiyəsinə aid bir sıra sırf pedaqoji

əsərlərin nəşr olunduğu göstərilir və bu əsərlər təhlil olunur. V.A.Suxomlinskinin “Vətəndaşın doğulması” əsəri ayrıca təhlil olunur.

Dissertasiyada qeyd edilir ki, XX əsrin 70-80-ci illərinin təlim-tərbiyə nəzəriyyəsi problemlərini tədqiq edən bir sıra alimlər vətəndaşlıq tərbiyəsi problemini tədqiqat obyekti seçməsələr də, yeri gəldikcə, bu barədə müəyyən elmi fikirlər söyləmişlər. Bu baxımdan M.M.Mehdizadənin, N.İ.Bolduryevin, F.B.Qorelikin, İ.N.Russunun, Y.R.Talıbovun, Ə.Ş.Həşimovun, X.Q.Fətəliyevin, B.A.Əhmədovun, M.İ.İlyasov və M.Ş.Nəzərovun fikirləri təhlilə cəlb edilmişdir.

Azərbaycanda vətəndaşlıq tərbiyəsi problemi üzrə ilk tədqiqatlar Əjdər Ağayevə məxsusdur. O, XX ərin 70-ci illərində başladığı tədqiqatları ardıcıl olaraq aparmış, kitablar və məqalələr nəşr etdirmişdir. Onun elmi rəhbərliyi ilə dissertasiya işləri hazırlanmışdır (Müəlliflər: Afiq Əliyev, Nazilə Yusifova, Sevinc Səfərova və d.).

A.Əliyev vətəndaşlıq ləyaqəti, R.Hüseynov vətəndaşlıq iftixarı, N.Yusifova ailədə uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işini, S.Səfərova isə vətəndaş təhsilinin nəzəri və təcrübi məsələlərini araşdırmış, öz tədqiqatlarını dissertasiya işi kimi müdafiə etmişlər.

Araşdırılan elmi-pedaqoji əsərlər sırasında Rusiya reallığına uyğun olaraq gənclərin vətəndaş tərbiyəsi problemi üzrə tədqiqatlar da saf-çürük edilmiş, digər əsərlərlə yanaşı, bu müəlliflərin tədqiqatlarına da müəllif münasibəti bildirilmişdir. Rusiya pedaqoq, filosof və sosioloqlarının əksəriyyəti belə bir qənaətdədir ki, uşaqda şəxsiyyətin vətəndaş keyfiyyətləri haqqında biliklərinin əsası mütləq ailədə qoyulmalıdır.

Dissertasiyada Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşdırılması, vətəndaş təhsili və tərbiyəsinin həyata keçirilməsi ilə əlaqədar fikirləri təhlil olunur, hazırkı şəraitdə fəaliyyətin metodoloji əsası kimi dəyərləndirilir.

***I fəslin II yarımfəsli “Vətəndaşlıq tərbiyəsinin elmi-nəzəri əsasları”*** adlanır. Burada kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinin sosial, pedaqoji, psixoloji əsasları qeyd edilir və onların mahiyyəti açılır.

Bəllidir ki, uşaqların vətəndaşlıq tərbiyəsinə mükəmməl yiyələnməsində ailənin psixoloji halının böyük əhəmiyyəti vardır. Bu cəhətdən ailə ahənginin əhəmiyyəti tədqiqatçılar tərəfindən xüsusi olaraq diqqətə çatdırılır. Araşdırmalardan aydın olur ki, sosial ocaq olan ailə uşaqların sosiallaşması prosesində onlara vətəndaşlıq keyfiyyətlərini də aşılayır.

Uşaqlarda vətəndaşlıq hissinin formalaşdırılması onlarla kiçik yaşlardan bu yönümdə iş aparılmasından çox asılıdır. Belə müəyyənləşdirmişik ki, vətəndaşlıq tərbiyəsi işinin yalnız praktik yönümdən deyil, nəzəri-ideoloji istiqamətdə aparılmasında daha məqsədyönlü nəticələr alına bilir. Buna uşaqlara hüquqi, ekoloji, iqtisadi və bu kimi müasir dövrün tələb etdiyi bilgiləri verdikdə nail olmaq mümkündür. Müşahidə apardığımız 50 ailədə gör-götür təcrübəsi ilə kifayətlənməyib, müəyyən bilgi və anlayışları uşaqlara çatdıranlar buna nümunə ola bilərlər. Hələ məktəbəhazırlıq dövründən başlayaraq uşaqlara vətən, torpaq, yurd, ölkə, respublika, kənd, şəhər, insanlar, cəmiyyət, dost, düşmən, yaxşı adam, kamil insan anlayışları öyrədilərsə, həmin bazada uşaqlara yaşadığı ölkənin, dövlətin gerbi, himni, bayrağı haqqında məlumat verildikdə onlar hiss edilmədən vətəndaşlıq hazırlığı keçirlər.

Ailədə kiçik məktəb yaşlı yaşlardan uşaqların vətəndaşlıq keyfiyyətlərinə yiyələnməsinin pedaqoji-psixoloji əsasları uşaqlara yanaşmanı düzgün müəyyənləşdirməni və onların ruhi və mənəvi əhvallarını nəzərə almağı tələb edir. Ailədə uşaqların vətəndaşlıq tərbiyəsində məktəb biliklərinə istinad edilməsi və onun əməli işlə həyata keçirilməsi vətəndaşlıq hazırlığında mühüm rol oynayır. Tədqiqi olaraq belə bir nəticəyə gəlmişik ki, vətəndaşlıq tərbiyəsinin 3 yaşdan başlayaraq, müxtəlif formalarda, sadədən çətinə, məlumdan məchula didaktik qaydalarına söykənərək, uşaqlara ardıcıl və fasiləsiz aşılanması xüsusi əhəmiyyət kəsb edir.

Dissertasiyada kiçik məktəb yaşlı uşaqlarla aparılan tərbiyə işinin 8 pedaqoji prinsipi irəli sürülür və əsaslandırılır. Eləcə də pedaqoji metodlardan istifadənin təsnifatı təqdim olunur.

Tədqiqatdan aydın olur ki, vətəndaşlıq tərbiyəsi prosesində psixoloji yanaşma mühüm əhəmiyyət daşıyır. Ona görə də valideynlərin pedaqoji-psixoloji biliklərə yiyələndirilməsi mühüm şərt kimi meydana çıxır.

Dissertasiyada müxtəlif tip ailələrdə kiçik məktəb yaşlı uşaqlarla aparılan tərbiyə işi təcrübəsi ümumiləşdirilir, onun səmərəliliyinin artırılması üçün iş sistemi təqdim olunur.

Vətəndaşlıq keyfiyyətlərinə dəyərlər, bilik və bacarıqlar daxildir.

Vətəndaşlıq keyfiyyətləri vətəndaşlıq mövqeyinin ortaya qoyulmasında meydana çıxır. Bunun üçün fəaliyyət göstərmək və bu fəaliyyətdə özünün vətəndaş təsdiqinin üzə çıxması lazımdır.

Ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi mühüm ictimai-siyasi və sosial mahiyyətlidir. Uşaqlıqdan başlanan bu tərbiyə kamil

insan və yüksək vətəndaş keyfiyyətlər daşıyıcısı olan şəxsiyyətlər yetişdirilməsinə təsir göstərir.

***I fəslin III yarımfəsli "Ailədə kiçik məktəb yaşlı uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin mövcud vəziyyəti"*** adlanır.

Ailədə kiçik yaşlı uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin mövcud vəziyyətini öyrənmək üçün Qazax rayonunda 60, Gəncə, Bakı, Sumqayıt şəhərlərinin hər birində 20 ailə müşahidə edilmiş, valideynlər və ailədəki uşaqlarla söhbətlər aparılmış, sorğular keçirilmişdir.

Ailələrlə aparılan müşahidə və sorğular göstərir ki, vətəndaşlıq tərbiyəsinin məzmununu bütün ailələr eyni mahiyyətdə başa düşürlər. Onlar vətəndaşlıq tərbiyəsi işinin məzmununa vətənpərvərlik, yaşadığı torpağa məhəbbət, onun düşməndən qorunması, şəhidlərin ruhuna, milli qəhrəmanlara ehtiram, düşmənə əliəyri və fırıldaqçılara, ziyanlı iş görənlərə nifrət, mənsub olduğu millətə ehtiram, hüquqi və əxlaqi normalara riayət edilməsi, intizamlılıq, üzərinə düşən borcu və vəzifəni yerinə yetirmək, dövlətin rəmzlərini bilmək və bayramlarda nümayiş etdirmək, ana dilini, milli adət-ənənələri dərindən sevmək kimi hissləri, praktik əməlləri daxil edirlər.

Tədqiqat göstərdi ki, uşaq bağçasında təlim-tərbiyə keçmiş uşaqlar məktəb mühitinə daha tez alışırlar. Onlar, hətta, vətəndaşlıq tərbiyəsi aşılayan söhbətlərin və tədbirlərin mahiyyətini daha tez anlaya bilirlər.

Tədqiqatdan məlum olur ki, məktəbə getdikdən sonra birinci sinfi qurtaranadək məktəbin təlim-tərbiyəvi təsirləri ilə uşaqlar arasındakı dünyagörüşü və ətraf aləmlə tanışlıq fərqi azalır, hətta, ailədə gözlənilən qaydaların, ailə intizamı və rejiminin, eləcə də, məktəb tapşırıqlarının yerinə yetirilməsi sahəsində valideynlərin diqqət və tələbinin gözlənilməsi nəticəsində ailədən birbaşa məktəbə gələn kiçik yaşlı uşaqların əksəriyyətinin işgüzarlığı, fəallığı daha yüksək olur.

Tədqiqatdan belə nəticə hasil olur ki, kiçik məktəb yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin bazasını məktəb təhsili, orada verilən biliklər təşkil edir. Bu yaşda uşaqlarda müəllimlərinə inam daha güclü olur. Araşdırma belə bir nəticəyə gəlməyə imkan verir ki, ailədə kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi uşağın məktəb mühiti ilə sıx bağlı olaraq aparılmalıdır. Belə bir nəticə də maraq doğurur ki, ailələrdə uşaqların vətəndaşlıq tərbiyəsi ailənin hansı sosial qrupa daxil olmasından və valideynlərin təhsil səviyyəsindən də asılıdır.

Azərbaycanın müstəqilliyi, suverenliyi uğrunda aparılan inadlı mübarizə ailələrdə vətəndaşlıq hisslərinin inkişafına geniş meydan vermişdir. Erməni işğalçılarının Azərbaycan torpaqlarına hücumu, Yuxarı

Qarabağ bölgəsində erməni daşnaklarının törətdiyi qanlı qırğınlar, azərbaycanlıların qədim yurdları olan Göyçədən, Zəngəzurdan, İrəvan çökəyindən və digər yerlərdən zorla qovulması hadisələri də Azərbaycanda yaşayan ailələrdə vətəndaşlıq fəallığına təkan vermişdir. Bütün bunlar kiçik yaşlı uşaqların Vətəni qorumaq, Vətən üçün ölümə belə getməyin mümkünlüyünü dərk etdirmişdir. 14 yaşlı balaca Samirin Qarabağ uğrunda döyüşlərdə əsgərlərlə birlikdə iştirakı, şəhid olması uşaqlar üçün örnək olan bir vətəndaşlıq yolu kimi qiymətləndirilmişdir.

Vətəndaşlıq tərbiyəsinin vəziyyətini 120 ailə nümunəsində öyrənmək məqsədi ilə onlarla müəyyənedici eksperiment xarakterli araşdırma apardıq.

Nəticə olaraq müəyyənləşdirdik ki, ailələrdə valideynlər uşaqların vətəndaşlıq hazırlığının, hərə öz anlam səviyyəsində olsa da, vacibliyini bilirlər. Lakin bu işlə məqsədyönlü və sistemli məşğul olan çox azdır. Daha çox uşaqların böyüklərin vətəndaşlıq nümunəsi üzrə tərbiyə olunmasına üstünlük verirlər. Yəni gör-götürü, şəxsi və fəaliyyət nümunəsini əsas götürürlər.

## Ailələrdə kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinə valideynlərin münasibəti

**Cədvəl 1**

| Ailə qrupları | Ailələrin sayı | Valideynlərin sayı | Vətəndaş tərbiyəsinin mahiyyətini düzgün bilənlər | Vətəndaşlıq keyfiyyətlə-rini düzgün dəyərləndirənlər | Ailədə uşaq şəxsiyyətinə hörmət | Ailədə uşaqlarla sistemli tərbiyə işinin aparılması | Vətəndaşlıq tərbiyəsi işinin təkmilləş-dirilməsinə ehtiyac |
|---|---|---|---|---|---|---|---|
| 1.Yüksək təhsil gör-müş ziyalı valideynlər | 20 | 38 | 38 | 38 | 20 | 15 | 5 |
| 2.Peşə-ixtisas təhsili ilə əmək fəaliyyətində olan valideynlər | 50 | 90 | 70 | 60 | 40 | 20 | 30 |
| 3.Peşə-ixtisas təhsili olmayan, xidməti işlərdə çalışan valideynlər | 50 | 90 | 40 | 20 | 30 | 10 | 40 |

Cədvəldən göründüyü kimi, ailələrin peşə-ixtisas təhsilinin səviyyəsi, fəaliyyət sahələri kiçik məktəb yaşlı uşaqlarla vətəndaşlıq tərbiyəsi işinin düzgün qurulmasına və keyfiyyətinə təsir göstərir.

Sorğu keçirilənlərin böyük əksəriyyəti vətəndaşlıq hazırlığını uşaqlarda hüquqi və mənəvi keyfiyyətlərin formalaşdırılması ilə əlaqələndirirlər. Müəyyən qismi iqtisadi təfəkkür və bacarıqların, xüsusilə, ticarət (alver) etmək qabiliyyətlərinin olması ilə əlaqələndirirlər.

Tədqiqat göstərir ki, ailədə uşaqların vətəndaşlıq tərbiyəsi sahəsində mövcud vəziyyətinin qənaətləndiriciliyi ailə tərkibindən asılı olaraq fərqlidir. İnsanların təhsil səviyyəsinə, maraq və meyllərinə, peşə-ixtisasına, fəaliyyət sahəsinə uyğun olaraq tərbiyədə aparıcılıq bu və ya digər istiqaməti təşkil edir. Hər halda, hər bir ailənin uşaqlarda vətəndaşlıq

tərbiyəsi məsələsi ilə əlaqədar biliklər və bununla bağlı müəyyən əməli işlər görülsə də, valideynlərin vətəndaş təhsili və tərbiyəsi istiqamətində müasir tələblər səviyyəsində maariflənməsinə ehtiyac vardır.

Mövzuya uyğun olaraq valideynlərlə apardığımız sorğular kimi, kiçik məktəb yaşlı uşaqlarla da müəyyənedici sorğu apardıq. Onlar irəlidə qeyd etdiyimiz şəhər və rayonlardan olaraq 135 nəfəri təşkil edirdilər.

**Kiçik məktəb yaşlı uşaqların vətəndaşlığa dair biliklərinin səviyyəsi (135 nəfər, 9-10 yaşlılar)**

**Cədvəl 2**

| Uşaqların sayı | Vətəni əziz və sevimli olduğunu bilənlər | Peşəyönümünə münasibət | | | Vətəni qorumağı vacib bilənlər | Gərəkli insan necə olmalıdır | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Bilənlər | Tərəddüd edənlər | Bilməyənlər | | Cəmiyyətə faydalı olmalıdır | Qazanmağı bacarmalıdır | Yaşayışını təmin etməlidir | Vətəndaşlığın nə olduğunu bilənlər | Dövlət əmzlərini tanıyanlar |
| 135 | 135 | 46 | 41 | 49 | 135 | 38 | 40 | 57 | 90 | 135 |

Valideynlərdə olduğu kimi, uşaqların da cavablarını ümumiləşdirdik. Belə nəticə alındı ki, sorğu keçirilən 135 uşağın hamısı Vətənin əziz olduğunu, doğma yurd olduğunu bilirlər və onu sevməyin hər bir insan üçün vacib olduğunu qeyd edirlər. Onlar, hətta, erməni daşnaklarının torpaqlarımızın bir hissəsini zəbt etdiklərini, insanları işgəncə ilə öldürdüklərini, yaramaz insanlar olduqlarını bilirlər. Ona görə də bu barədə öz fikirlərini yazarkən nifrətlərini də ifadə edirlər. Böyüdükdən sonra torpaqlarımızı erməni daşnaklarından azad edəcəklərini inamla söyləyirlər.

Cavabların araşdırılmasından aydın oldu ki, uşaqların müəyyən qismi yalnız öz təminatını həyata keçirmək arzusu ilə yaşayır. Bu bəlkə də uşaqlarda bazar iqtisadiyyatı düşüncəsinin, sahiblik duyğusunun yüksəlməsi ilə bağlıdır. O da məlum oldu ki, uşaqların xeyli qismi

vətəndaşlığı adi insani keyfiyyət kimi başa düşürlər, onun hüquqi-siyasi aspektlərini fərqləndirə bilmirlər. Hiss olundu ki, bəzi ailələrdə vətəndaşlıq haqqında söhbət getmir. Amma vətəni qorumaq, onun müstəqilliyini tanımaq, sahibkar olmaq, biznes qurmaq barəsində söhbətlər gedir. Bu da bütün ailələri əhatə etmir.

Uşaqların cavablarından aydın oldu ki, onlar vətəndaşlıq dərslərini daha çox məktəbdə və radio-televiziya verilişlərindən alırlar. Eləcə də valideynlərin ailədə uşaqlarla apardığı söhbətlər onlarda vətəndaşlıq anlamının və duyğularının yüksəlməsində rol oynayır.

Araşdırmadan belə bir nəticəyə gəldik ki, ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi praktik olaraq günün tələbləri səviyyəsində qurulmaq ehtiyacındadır.

**Dissertasiyanın II fəsli "Ailədə kiçik məktəb yaşlı uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin təşkili xüsusiyyətləri" adlanır.**

***II fəslin I yarımfəslində "Ailədə kiçik məktəb yaşlı uşaqlarla aparılan tərbiyəvi işin xüsusiyyətləri və vətəndaşlıq tərbiyəsinin imkanları*"** araşdırılır.

Valideynlər tərbiyəçilik fəaliyyətlərində bir neçə cəhətə diqqət yetirməlidirlər: onlar uşaqların psixoloji və fizioloji xüsusiyyətlərini, fiziki hazırlığını öyrənməli, uyğun olaraq inkişafetdirici təsir mexanizmini tapmalıdırlar. Eləcə də onların sosial mühitinin məqsədyönlü olmasına təsir göstərməlidirlər, ailə ahənginin pozulmasına yol verməməlidirlər, öz söhbətlərinin,işlərinin, əməllərinin vətəndaşlıq tərbiyəsi təsiri oyatmasına səy etməlidirlər.

Tədqiqat göstərir ki, valideyinlər uşaqların inkişaf dövürlərini və həmin dövürlərdəki onlara məxsus xüsusiyyətləri nəzərəaldıqda öz tərbiyəvi məqsədlərinə asanlıqla nail ola bilirlər.

Bəlli olduğu kimi şəxsiyyətin formalaşdırılmasında irsi-bioloji və sosial amillərin mühüm əhəmiyyəti vardır. Valideyinlər tərəfindən bu cəhətlərdə nəzərə alınmalı və unudulmamalıdır ki, uşaqların vətəndaşlıq tərbiyəsində sosial mühitin və məqsədyönlü tərbiyəvi işin əhəmiyyətli təsiri vardır.

Tədqiqat göstərir ki ailədə uşaqların vətəndaşlıq tərbiysini daha uğurlu həyata keçirmək üçün valideyinlərin klassik ədəbiyyata, müdriklərin deyimlərinə diqqət yetirməsi, onların fikirlərini tərbiyə prosesində nəzərə almaları faydalı təsir göstərir. Bu hissədə dissertant Nizami Gəncəvinin fikirlərindən, hikmətli deyimlərdən, alimlərdən, E.S.Vqotskinin, V.A. Sxomlinskinin və digər pedaqoqların ideyalarından bəhrələnərək uşaqların

ailədə vətəndaşlıq tərbiyəsinin səmərəlilik imkanlarını göstərir. Eyni zaman da, bu yönümdə ailədə aparılan praktik işlərin istiqamətlərini tədqiqi nəticə olaraq göstərir.

***II fəslin II yarımfəslində ailədə kiçik yaşlı uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin yolları araşdırılır və müəyyənləşdirilir.***

Qeyd olunur ki, Bakı, Gəncə, Qazax, Sumqayıt şəhərlərində və həmin şəhərlərin ətrafında yerləşən 8 kənddə ailələrlə ilkin söhbətlərdən məlum oldu ki, valideyinləri müəllim, digər sənəd sahibi olan ziyalı ailələrdə uşaqların vətəndaşlıq tərbiyəsində elmi pedaqoji tələblərdən istifadə edilir, onlara pedaqoji cəhətdən düşünülmüş yanaşlılır. Digər ailə qrupları vardır ki, valideyinlər vətəndaşlıq tərbiyəsində nələrə diqqət yetirilməsini bilsələr də, vaxt tapa bilmədiklərindən ona lazımınca zaman ayıra bilmirlər.

Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, kiçik məktəb yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin müxtəlif yollarla düzgün, məzmunca biri-biri ilə əlaqəli və kompleks həyata keçirilməsi daha səmərəli təsirlə nəticələnir.

Araşdırma nəticəsində müəyyənləşdirilmişdir ki, kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin konkret yolları vardır: Uşaq oyunları; Ailədə əmək işləri; Ailə söhbətləri; Ailə ənənələri: Ailədə tarixi bayramların və ailə bayramların keçirilməsi, Ailədə ünsiyyətin ana dilində qurulması; Ailə oxu və müzakirələri; Ailə gəzinti, səyahət və ziyarətləri; Uşaqların vətəndaşlıq sənədləri ilə tanış edilməsi.

Dissertasiyada bu yolların hər biri ilə əlaqədar ailələrdə aparılmış müşahidələr, ekspermental təcrübi işlər ümumiləşdirilmiş, sistem olaraq bu yolların tətbiqinin uşaqların vətəndaşlıq tərbiyəsində mühüm əhəmiyyət daşıdığı göstərilmişdir. Xüsusi ilə, ailədə aparılan söhbətlərin mövzusu Azərbaycanın müstəqilliyi, erməni daşnaq ünsürlərinin Qarabağı işğal etməsi, müharibədə şəhidlik zirvəsinə qalxan insanların həyatı və digər faciyələr (20 Yanvar hadisəsi, Xocalı soyqrımı, 20 Noyabrda vertalyotda dövlət adamlarına qarşı sui-qəsd) aid olduqda uşaqlar duyğulanır, onlarda vətəndaşlıq hissləri daha fəal olaraq baş qaldırır və inkişaf edir.

Uşaqlarda hüquqi təfəkkürün formalaşdırılması, onların hüquqi sənədlərə, aktlara münasibətini reallaşdırır. Buna görə də, dissertantın təklif etdiyi sistemdə ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi imkanları və yollarının məqsədyönlü müəyyənləşdirilməsi uşaqlarda hüquqi, əxlaqi-mənəvi, ideya-siyasi, iqtisadi və digər cəhətdən anlamların yaradılması əsas götürülür.

Dissertasiyada təqdim olunan sistemlə hazırlıq aparılan ailələrdə (25 ailə) ənənəvi qaydada hazırlıq işləri aparan ailələrin 1-ci sinfdə oxuyan şagirdləri ilə sorğular zamanı təqdim edilən sistemin daha səmərəli olduğu müəyyənləşdirilmişdir.

***II fəslin III yarımfəsli kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsində ailənin məktəblə qarşılıqlı əlaqəsinin səmərləi forma və yollarını*** *şərh edir.*

Məktəbdə formalaşdırılan düzgün davranış bacarıq və vərdişlərinin ailədə daha da möhkəmləşdirilməsi və inkişaf etdirilməsi kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Araşdırma məqsədi ilə 150 ailə ilə (Qazax şəhəri və ətraf şəhərlərində, Gəncə şəhərində) anket sorğusu keçirilmişdir (100 ailə kənddə, 50 ailə şəhərdə).

Bəlli olmuşdur ki, valideyinlərin bir çoxu ya arzusu olmadığına görə, yaxud vaxt ayırmadığına görə məktəblə əlaqə saxlamır. Ya da, uşağı məktəbə aparıb gətirəndə onun müəllimi ilə, necə deyərlər,"at üstü" söhbətlə kifayətlənir.

Müəyyən qisim valideyinlər məktəbin təşəbbüsü ilə olan tədbirlərdə iştirak edir, çox az qisim valideyinlər isə öz təşəbbüsü ilə məktəblə, müəllimlə əlaqə saxlayır, uşaqların vətəndaşlıq tərbiyəsində tələblərdə vahidliyi gözləyir. Öyrənilən ailələrin cəmi 35%-i tərbiyə işini məktəblə qarşılıqlı əlaqədə qurduğunu qeyd etmişdir.

Valideyinlərlə bir illik ardıcıl, planlı, sistemli aparılan tədbirlərdən sonra tədricən təcrübəsi öyrənilən bütün ailələrlə məktəb arasında məqsədyönlü iş üslubu formalaşmışdır.

Tədqiqatda valideyinlərlə aparılan müxtəlif iş formalarından (fərdi, qrup, kollektiv və s.) bəhs olunur, bunların məqsədə çatmada əhəmiyyət daşıdığı göstərilir.

Valideyinlərə məqsədyönlü təsir göstərmək üçün onların anket suallarına cavabları təhlil edilmiş, ailənin tərkibi, marağı, sosial, iqtisadi, mənəvi vəziyyəti, təlabatı cavablar əsasında öyrənilmiş və onlara maarifləndirici təsir mexanizmi müəyyənləşdirilmişdir.

***II fəslin IV yarımfəslində ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi üzrə aparılan pedaqoji ekspermentin nəticələri şərh olunur.***

Eksperment müəyyənedici, öyrədici və yoxlayıcı mərhələdən ibarət olmuşdur.

Eksperment Gənçə şəhərindəki 4, Sumqayıt şəhərindəki 25, Bakı şəhərindəki 114, Qazax şəhərində 2 nömrəli məktəblərdə və Qazax

rayonunun Cəfərli kənd məktəbində oxuyan kiçik yaşlı uşaqlarla və həmin uşaqların valideyinləri ilə aparılmışdır.

**Valideynlərin kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinə aid məlumatlarının müəyyənləşdirilməsi**
**(Kontrol qrup)**

**Cədvəl 3**

| Valideynlərin sayı | Sual | Cavabların səviyyələri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək | | Orta | | Aşağı | |
| | | nəfər | % | nəfər | % | nəfər | % |
| 120 | 1 | 32 | 16,7 | 41 | 34,2 | 47 | 51,8 |
| | 2 | 23 | 19,2 | 30 | 25,0 | 67 | 55,1 |
| | 3 | 39 | 32,5 | 35 | 29,2 | 46 | 38,3 |
| | 4 | 40 | 33,3 | 54 | 45,0 | 26 | 21,7 |
| | 5 | 21 | 17,5 | 33 | 27,5 | 66 | 55,0 |

**Valideynlərin kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinə aid məlumatlarının müəyyənləşdirilməsi**
**(Eksperimental qrup)**

**Cədvəl 4**

| Valideynlərin sayı | Sual | Cavabların səviyyələri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək | | Orta | | Aşağı | |
| | | nəfər | % | nəfər | % | nəfər | % |
| 120 | 1 | 60 | 50 | 40 | 30 | 20 | 20 |
| | 2 | 65 | 52 | 45 | 32 | 10 | 16 |
| | 3 | 60 | 50 | 40 | 30 | 20 | 20 |
| | 4 | 65 | 52 | 45 | 32 | 10 | 16 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 5 | 68 | 58,5 | 24 | 27,5 | 8 | 55,0 |

Alınmış nəticələrdən bəlli oldu ki, ənənəvi tədbirlər nə qədər keçirilsə də, valideynlərin və uşaqların həm tarixi, həm də müasir baxımdan müəyyən biliklərə yiyələnməsi vacibdir. Bu nəticə uşaqlarla keçirilən sorğuda da özünü göstərdi.

**Kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinə aid məlumatlarının müəyyənləşdirilməsi**
**(Kontrol qrup)**

**Cədvəl 5**

| Valideynlərin sayı | Sual | Cavabların səviyyələri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək | | Orta | | Aşağı | |
| | | nəfər | % | nəfər | % | nəfər | % |
| 120 | 1 | 32 | 16,7 | 41 | 34,2 | 47 | 51,8 |
| | 2 | 23 | 19,2 | 30 | 25,0 | 67 | 55,1 |
| | 3 | 39 | 32,5 | 35 | 29,2 | 46 | 38,3 |
| | 4 | 40 | 33,3 | 54 | 45,0 | 26 | 21,7 |
| | 5 | 21 | 17,5 | 33 | 27,5 | 66 | 55,0 |

**Valideynlərin kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinə aid məlumatlarının müəyyənləşdirilməsi**
**(Eksperimental qrup)**

**Cədvəl 6**

| Valideynlərin sayı | Sual | Cavabların səviyyələri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək | | Orta | | Aşağı | |
| | | nəfər | % | nəfər | % | nəfər | % |
| 120 | 1 | 60 | 50 | 40 | 30 | 20 | 20 |
| | 2 | 65 | 52 | 45 | 32 | 10 | 16 |
| | 3 | 60 | 50 | 40 | 30 | 20 | 20 |
| | 4 | 65 | 52 | 45 | 32 | 10 | 16 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 5 | 68 | 58,5 | 24 | 27,5 | 8 | 55,0 |

Yuxarıda qeyd etdiyimiz kimi, eksperimental qruplarda olan uşaqların vətəndaşlıq və onun keyfiyyətləri haqqında təsəvvürləri daha yüksəkdir, hətta, öz yaşlarına uyğun olaraq müəyyən konkret biliklərə söykənir.

Tədqiqatın gedişində irəli sürülmüş fərziyyənin həqiqiliyi təsdiq olunmuş və aşağıdakı **nəticələr** alınmışdır:

1. Kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi onların əxlaqi-mənəvi tərbiyəsinə daxildir. Vətəndaşlıq tərbiyəsi işi bir istiqamət üzrə deyil, mənəvi tərbiyə kontekstində aparıldıqda daha səmərəli nəticə verir.

2. Kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi problemi insan – vətəndaş hazırlığı ideyasının reallaşdırılması üzrə tarixin bütün zamanlarında mövcud olmuşdur. Hər bir ictimai-siyasi quruluş vətəndaşlıq tərbiyəsinə və hazırlığına dövlətin mənafeyi baxımından yanaşmış, əsas məqsədi yaşadığı xalqa, ölkəyə, dövlətə mənsub faydalı əmək və döyüş fəaliyyəti göstərən insanlar hazırlamaqdan ibarət olmuşdur.

3. İctimai-pedaqoji fikir nümayəndələri kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsini onların şəxsiyyət kimi formalaşmasında mühüm amil hesab etmişlər. Ona görə də kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi şəxsiyyəti formalaşdırmağın mühüm tərkib hissəsi hesab edilmiş, hər bir yeniləşən cəmiyyətdə yeni məzmunlu insanın hazırlanmasında əhəmiyyətli rol oynamışdır.

4. Kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi işinə valideynlər uşaqların həyat hazırlığında mühüm əhəmiyyət daşıyan vasitə kimi baxmışlar.

5. İstər tarixi, istərsə də müasir baxımdan uşaqların vətəndaşlıq tərbiyəsi onlarda dövlət mənsubiyyəti, vətəndaşlıq borcu və ləyaqət hissinin formalaşdırılmasına, vətənpərvər, işgüzar, mənsub olduğu torpağın, xalqın, ölkənin qorunması və inkişafı uğrunda fədakarlıq göstərə bilən insan – şəxsiyyət – vətəndaşın yetişdirilməsinə xidmət edir.

6. Kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi işinin səmərəlilik səviyyəsini qaneedici hesab etmək olmaz. Səmərəlilik səviyyəsini yüksəltmək üçün valideynlərin və uşaqların vətəndaşlıq tərbiyəsi işinin məzmununa bələdliyini artırmalı, onların maariflənməsini həyata keçirməli, bu işi ardıcıl və sistemli reallaşdırmaq üçün vətəndaşlıq

tərbiyəsi işinin imkan və yollarını dəqiq müəyyənləşdirib, istifadə edilməsini ailə ahənginin normasına çevirmək fayda verir.

7. Müstəqil, suveren Azərbaycan dövlətinin yeni quruculuq və inkişaf konsepsiyasında böyüyən nəslin sistemli vətəndaşlıq tərbiyəsi ideoloji-tərbiyəçilik fəaliyyətinin ən vacib sistemini təşkil edir və hərtərəfli inkişaf etmiş şəxsiyyətin yetişdirilməsində əsas komponent kimi çıxış edir.

8. Ailədə kiçik yaşlı uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin məktəblə qarşılıqlı əlaqədə qurulması tələblərdə vahidlik prinsipinə cavab verir, tərbiyə işinə ailədə birtərəfli yanaşmanı aradan qaldırır.

9. Tərbiyə işinin səmərəliliyi kiçik yaşlı uşaqlara məqsədyönlü olaraq müvafiq biliklərin verilməsi, onların təfəkkürünü inkişaf etdirməklə meydana çıxır.

10. Vətəndaşlıq tərbiyəsi prosesində milli-regional xüsusiyyətlərin, adət və ənənələrin, həyat şəraitinin, sosial-iqtisadi reallıqların nəzərə alınması və bu əsasda iş sisteminin tətbiq edilməsi vətəndaşlıq tərbiyəsinin müasir məzmununu meydana çıxarır və səmərəliliyini təmin edir.

11. Kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi işi sisteminin məzmununu kompleks tərbiyəvi tədbirlərin tətbiqi, ailənin, məktəbin, digər təsir amillərinin qarşılıqlı əlaqəsi vasitəsilə uşaqlarda yaradılan fərdi və ictimai maraqların ahəngdar uyuşması, hərəkətdə, fəaliyyətdə söz və əməl birliyinin olması, fəal vətəndaşlıq mövqeyi, fəaliyyətdə məqsədyönlülüyün təmin edilməsi, hüquq və əxlaq normalarına əməl edilməsi, şüurluluq, qayğıkeşlik, vicdanlılıq, ədalətlilik, məsuliyyətlilik, mübarizlik, həqiqətpərəstlik, vətənsevərlik, düşmən niyyətlə, əyriliklərlə barışmazlıq kimi keyfiyyətlərin meydana çıxması təşkil edir.

12. Ailədə kiçik yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi onların inkişafına uyğun qurulan, bu inkişafa təkan verən pedaqoji təsir vasitələrindən, forma və metodlardan planlı surətdə istifadə etdikdə, onlarda fəallıq və müstəqilliyin inkişafı özünü daha aşkar göstərir və böyük praktik əhəmiyyət daşıyır.

13. Kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi üzrə təqdim etdiyimiz sistem uşaqların fərdi vətəndaşlıq mövqeyinin yaranmasına, özünüdərkinə, milli mənlik şüurunun formalaşmasına ilkin təsir göstərir. Bütün bunlar onların yeniyetməlik və gənclik dövründə vətəndaşlıq yetkinliyinə asanlıqla yiyələnməsinə şərait yaradır, əhəmiyyətli özül rolunu oynayır.

14. Kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi üzrə təqdim etdiyimiz sistem uşaqlar böyüdükcə artan, davranış normasına çevrilən

vətəndaşlıq şüurluluğu, vətəndaşlıq borcu, vətəndaşlıq davranışı, vətəndaşlıq qüruru, vətəndaşlıq ləyaqəti, vətəndaşlıq dəyanəti kimi praktik fəaliyyətdə özünü göstərən keyfiyyətlərin uğurlu formalaşmasını təmin edir.

Alınmış nəticələrə əsaslanan **təkliflər** hazırlanmışdır:

1. Ailədə uşaqların vətəndaşlıq tərbiyəsinin hamılıqla və işə bələdliklə aparılması üçün bütün orta ümumtəhsil məktəblərində humanitar təhsilin məzmunu milli-mənəvi dəyərlər bazasında qurulmalı (xüsusilə təlim rus və digər xarici dildə olan məktəblərdə) və gələcək valideynlərin vətəndaşlıq hazırlığına diqqət köklü şəkildə artırılmalıdır.

2. Təhsil Nazirliyi uşaqların bilavasitə vətəndaşlıq tərbiyəsi işinə xüsusi qayğı ilə yanaşmalı, məktəbdə, ailədə və digər təsir institutlarında bu işin qurulması və həyata keçirilməsinə kömək edən tərbiyə işi məzmununu, iş forma və metodlarını və s. əks etdirən pedaqoji-metodik materiallar, tövsiyələr, hüquqi-təlimati sənədlər hazırlanmalı, realizə etməlidir.

3. Vətəndaşlıq tərbiyəsinə aid pedaqoji əsərlərin, iş təcrübəsini əks etdirən materialların nəşrinə nail olmaq vacibdir.

4. Ailədə vətəndaşlıq tərbiyəsi məsələlərindən bəhs edən televiziya və radio verilişlərinin ardıcıl təşkili valideynlərin işə bələdliyinin və diqqətlərinin artmasına təsir göstərə bilər.

5. Bir sıra xarici ölkədə olduğu kimi, Azərbaycan Respublikasında da vətəndaş təhsilinin təhsilin məzmununa daxil edilməsi, onun Kurikulumunun yaradılması vətəndaşlıq tərbiyəsi işinin daha səmərəli nəticə verməsini təmin edər.

Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Ailədə tarixi bayramların keçirilməsi vasitəsi ilə uşaqların vətəndaşlıq tərbiyəsi // Pedaqoji Universitet Xəbərləri, 2004, №4, s.388-391

2. Kiçik məktəb yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsinin şərtləri // Azərbaycan məktəbi, 2005, №1, s.81-83

3. Kiçik məktəb yaşlı uşaqlrın ailədə tərbiyəsinin xüsusiyyətləri və vətəndaşlıq tərbiyəsinin imkanları // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2005, №1, s.205-211

4. Гражданское воспитание в семье детей младшего школьного возраста // Білім берудегі менеджмент в образовании. Газахыста, 2011, №2 (61), s.99-203

5. Vətəndaşlıq tərbiyəsi ideyasının meydana çıxması və inkişafı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2012, №2, s.156-161

6. Ailədə kiçik yaşlı uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin xüsusiyyətləri və imkanları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2012, №2, s.125-129

7. Vətəndaş cəmiyyəti quruculuğunda uşaqların vətəndaşlıq tərbiyəsi / Ümumimilli lider H.Əliyevin 90 illik yubileynə həsr olunmuş " Təhsil və cəmiyyət" mövzusunda V Respublika elmi-praktik konfransı. Bakı, 2013, 7 may, s. 266-268

8. Kiçik yaşlı məktəblilərin vətəndaşlıq tərbiyəsində ailə-məktəb münasibətlərinin ibtidai sinif müəllimi hazırlığında nəzərə alınması / "Müəllim hazırlanma siyasəti və problemləri" beynəlxalq simpoziumu, Bakı, 2013, s.149-150

**Гамлет Вели оглы Ильясов**

## Возможности и пути работы по проведению гражданского воспитания в семье с детьми младшего школьного возраста

### Резюме

Данная диссертация состоит из введения, двух глав, выводов и списка использованной литературы.

Во введении обоснована актуальность исследования, определены цель и гипотеза темы, объект и предмет исследования, его научное и практическое значение, обоснованы представленные на зашиту научные положения и полученные результаты.

Первая глава называется «Гражданское воспитание – как педагогическая проблема». В этой главе были исследованы проблемы гражданского воспитания, его научные основы и анализированы пути

проведения работы по гражданскому воспитанию с детьми младшего школьного возраста.

Для воспитания гражданина, начиная с младших лет надо провести в семье систематическую работу, определить их пути и возможности.

Вторая глава называется «Особенности организации работы по проведению гражданского воспитания в семье с детьми младшего школьного возраста».

Во главе говорится о возможностях и путях работы по проведению гражданского воспитания в семье с детьми младшего школьного возраста, раскрыты эффективные формы и пути для взаимной связи со школой при решении проблем и комментированы результаты данного эксперимента.

В конце диссертации представлены общие выводы и рекомендации, полученные на основании проведенного исследования. А так же дан список использованной литературы в процессе исследования.

**Hamlet Veli Ilyasov**

**Opportunities and ways of working for the civic education in the family with young children**

**SUMMARY**

This dissertation consists of an introduction, two chapters, conclusion and bibliography.

In the introduction the urgency of a study to determine the purpose and hypothesis theme, a subject of study, its scientific and practical importance, based views on a sewn scientific positions and results.

The first chapter is called "Civic Education - as a pedagogical problem". This chapter has investigated the problem of civic education, its scientific basis and analyzed the way of work on civic education of young children.

For the education of the citizen, since younger years it is necessary to conduct systematic work in the family, to determine their ways and possibilities.

The second chapter is called "Features of the organization of work on denia check civic education in a family with young children".

In the chapter discusses the possibilities and ways of working for the grazh¬danskogo upbringing in a family with young children, disclosed effek¬tivnye forms and ways of mutual communication with the school in solving problems and comment on the results of this experiment.

At the end of the thesis presents general conclusions and recommendations, based on polu¬chennye study. And also given a list ispol¬zovannoy literature in the course of the study.

**Министерство Образования Азербайджанской Республики**

**Азербайджанский Государственный Педагогический Университет**

*На правах рукописи*

# Гамлет Вели оглы Ильясов

# Возможности и пути работы по проведению гражданского воспитания в семье с детьми младшего школьного возраста

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**БАКУ-2016**